AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT STATİSTİKA KOMİTƏSİ
Əmək statistikası şöbəsi

# MUZDLU İŞÇİLƏRİN SAYI VƏ ƏMƏK HAQQI GÖSTƏRİCİSİNİN HESABLANMASINA DAİR KEYFİYYƏT MƏRUZƏSİ

**15.04.2013**

Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
natella@azstat.org, +994 12 538 86 68

# Mündəricat


1. Statistik prosesə və məhsullara giriş........................................................ 3
2. Aktuallıq........................................................................................ 6
3. Dəqiqlik........................................................................................ 7
4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə................................ 12
5. Bərabər giriş və aydınlıq.................................................................... 13
6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik............................................... 14
7. Çıxış keyfiyyət komponentləri arasında seçim........................................... 15
8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi.................. 15
9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük....................................... 15
10. Məxfilik, şəffaflıq və təhlükəsizlik............................................................ 16
11. Yekun........................................................................................... 16

## 1. Statistik prosesə və məhsullara giriş

***Statistik prosesin qısa təsviri***

Azərbaycan Respublikasında Əmək statistikasının (əmək bazarı statistikasının) təşkili sahəsində əsas rəhbər sənəd, 25 iyun 1985–ci ildə Beynəlxalq Əmək Təşkilatının Baş konfransı tərəfindən qəbul olunmuş beynəlxalq standartlara cavab verən Əmək Statistikası haqqında Konvensiya (№ 160) və Əmək Statistikası haqqında Tövsiyələrlə (№ 170) birgə Azərbaycan Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair Dövlət Proqramları sayılır.

Əmək statistikasının əsasını Beynəlxalq Əmək Təşkilatının Baş konfransı tərəfindən qəbul olunmuş, əmək statistikasının müntəzəm toplanmalı və dərc edilməli olan əsas göstəricilərinin siyahısı əhatə edir. Göstəricilər beynəlxalq standartlara uyğun olaraq aşağıdakı bölmələrdə qruplaşdırılmışdır: əmək ehtiyatları, əmək qabiliyyətli yaşda əhali, əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli əhali, iqtisadi fəal əhali, məşğul əhali, işsizlər, əmək haqqının ödənilməsinin artım səviyyəsinin və dinamikasının tədqiqi, işçilərin əmək haqqının həcminə görə bölgüsü, orta aylıq əmək haqqı, işçilərin əmək şəraiti, işçi qüvvəsinin hərəkəti, iş vaxtından istifadə, əmək haqqı və işçi qüvvəsinə çəkilən xərclər, kadrların peşə hazırlığı və əmək miqrasiyası.

Əmək statistikası Beynəlxalq Təşkilatlarla və statistikanın digər sahələri ilə, o cümlədən: istehsal sahələri statistikası, xidmət sahələri statistikası, milli hesablar statistikası, demoqrafiya və gender statistikası ilə sıx əlaqədədir. İşçilərin sayı və əmək haqqı, işçi qüvvəsinə çəkilən xərclər iqtisadiyyatın bütün sahələri üzrə əsas göstəricilər sayıldıqca bu əlaqələr daha da genişlənəcəkdir.

İşçilərin sayı və əmək haqqı əmək statistikasının əsas göstəriciləri olmaqla yanaşı həm də ən çox müraciət, istifadə, təhlil olunmaqla və araşdırılmaqla daim gündəmdə qalmaqdadır. İşçilərin (məşğul olanların) sayı dedikdə ilk növbədə iqtisadiyyatın maddi istehsal sahələrində və ya xidmətin müxtəlif sahələrində qazanc (gəlir) gətirə biləcək faydalı əmək fəaliyyəti ilə məşğul olanlar başa düşülür və bir çox incəliklər vardır ki, onların da tam qavranılması mümkün olsun deyə həmin incəlikləri bir-birindən ayırmaq lazımdır.

Əmək haqqı (I) - İşlənmiş vaxt və ya yerinə yetirilmiş işə görə, həmçinin işlənməmiş, ancaq ödəməyə aid olan vaxt (məsələn, illik məzuniyyətə) görə muzdla çalışan işçilərin aldığı pul və ya natura formasında ödəmələrin məbləğidir. Bu məbləğə əmək haqqına edilən əlavələrin, mükafatların və digər ödənclərin məbləği də daxil edilir. Aylıq iş vaxtı normasını işləmiş və əmək funksiyasını yerinə yetirmiş işçinin əmək haqqı müəyyən edilmiş minimum əmək haqqından aşağı ola bilməz. Əmək haqqı (II) - əməyin vaxtamuzd və ya işəmuzd ödənilməsi əsasında həyata keçirilməsindən və onların müntəzəm və ya qeyri-müntəzəm aparılmasından asılı olmayaraq, hesabat dövrü ərzində yerinə yetirilən işə görə ödəmə cədvəlində adları göstərilmiş bütün şəxslərə (evdə iş görənlər də daxil edilməklə) ödənilən pul və ya natura formasında haqdır. Əmək haqqına muzda işləyənlər tərəfindən sosial sığortaya, gəlir vergisinə və s. yönəldilən (hətta əgər onlar faktiki olaraq işverən tərəfindən tutulursa və muzdla işləyənlərin adından birbaşa sosial sığortaya, vergi xidmətlərinə və s. ödənilirsə də) istənilən ödəmələr daxil edilir.

***Müşahidə vahidləri***

Əmək bazarı şəraitində işçilərin sayı və əmək haqqı barədə məlumatları əldə etmək üçün iki üsulla müşahidə vahidlərindən istifadə edilir. Birinci üsul "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq bütün müəssisə və təşkilatlardan təyinatından asılı olaraq aylıq, rüblük və illik rəsmi statistik hesabat formaları əsasında və ikinci üsul isə rübdə bir dəfə həyata keçirilən "Əhalinin iqtisadi fəallığı"na dair ev təsərrüfatlarında aparılan seçmə statistik müayinə və 2008-20012-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair dövlət proqramına əsasən nəzərdə tutulan digər müayinələr yolu ilə  toplanılır.

Qeyd etmək lazımdır ki, müəssisə və təşkilatlardan qəbul edilən statistik hesabat formalarında əks olunan işçilərin sayı və əmək haqqı göstəriciləri dedikdə konkret olaraq muzda işləyən işçilərin sayı və onlara hesablanan əmək haqqı nəzərdə tutulur. Müayinənin nəticələrinə əsasən həm ümumi məşğul əhali haqqında, həm də muzdla işləyən işçilərin sayı, yaş qrupu, cinsi, təhsili, nikah vəziyyəti və digər göstəricilər haqqında geniş informasiya əldə etmək olur.

Müayinədə müşahidə vahidi kimi ev təsərrüfatları və həmin ev təsərrüfatlarında yaşayan 15 və ondan yuxarı yaşında olan şəxslər nəzərdə tutulur.

*Əhatə dairəsi*

İşçilərin sayı (muzdla işləyənlər üzrə) və əmək haqqına dair məlumatların əldə edilməsi üçün "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq ölkə ərazisində yerləşən mülkiyyət və təşkilatı-hüquqi formasından asılı olmayaraq hüquqi şəxslər (onların nümayəndəlikləri və filialları), Azərbaycan Respublikasının hüdudlarından kənarda yerləşən Azərbaycan Respublikasının hüquqi şəxsləri və Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən xarici hüquqi şəxslərin nümayəndəliklərinə, filiallarına, həmçinin fiziki şəxslərindən alınan statistik hesabat məlumatlarına istinad olunur.

**Müayinənin əhatəsi:**

a) Coğrafi: ölkənin bütün şəhər və rayonları üzrə seçməyə düşmüş ev təsərrüfatları.
b) Müayinə ilə əhatə olunan şəxslər: 15 və yuxarı yaşda olan, ölkədə daimi yaşayan, o cümlədən müvəqqəti xaricə gedən bütün şəxslər.

Müayinə ilə əhatə olunmayan şəxslər:

- altı ay və daha çox müddətə digər yaşayış məntəqələrində və ya ölkənin hüdudlarından kənarda ezamiyyətdə olanlar;
- təhsil aldığı yerdə yaşayan tələbələr (şagirdlər);
- həqiqi hərbi xidmət qulluqçuları;
- xəstəxanalarda altı ay və daha çox müddətə müalicə olunanlar;
- məhkəmənin qərarına görə cəza çəkənlər və ya məcburi müalicə olunanlar.

Respublikanın şəhər və rayonlarında seçmə yolu ilə seçilmiş ev təsərrüfatlarında müayinə anketlərinin sorğu əsasında qeyd edilməsi (doldurulması) yolu ilə əldə edilmiş məlumatların respublika üzrə əhalinin sayına şamil edilməsi yolu ilə yekun nəticə əldə edilir.

2007-2012-ci illərdə "Əhalinin iqtisadi fəallığı"na dair seçmə statistik müayinə hər rüb ölkə üzrə 3000-8000 ev təsərrüfatında aparılırdısa 2012-ci ilin IV rübündən başlayaraq 19800 ev təsərrüfatında aparılır.

Müayinələr zamanı sorğu aparılacaq ev təsərrüfatlarının sayı nə qədər çox olarsa və sorğu anketlərində qoyulan suallar aktual və düzgün olarsa müayinənin yekun məlumatları da reallığa yaxın olar və reprezentativlik təmin olunar.

***Statistik hesabatlarda mövzuya aid əsas göstəricilər:***

- Cəmi işləyənlərin orta sayı və əmək haqqı (aylıq və ilin əvvəlindən);
- Siyahı tərkibində olan işçilərin (əvəzçilik üzrə işləyən kənar işçilər nəzərə alınmadan) orta sayı və əmək haqqı (aylıq və ilin əvvəlindən);
- Əvəzçilik üzrə işləyən kənar işçilər və əmək haqqı (aylıq və ilin əvvəlindən);
- Mülki-hüquqi xarakterli müqavilələr üzrə işləri yerinə yetirən şəxslər və əmək haqqı (aylıq və ilin əvvəlindən) ;
- Hesabat dövrünün sonuna siyahı tərkibdə olan işçilərin sayı;
- Əmək haqqı fondu;
- Əcnəbilərin sayı;
- Qadınların sayı.

***Müayinənin sorğu anketindən əldə olunan işçilərin statusuna görə göstəricilər:***

- Məşğul əhalinin sayı;
  o cümlədən:
- Muzda işləyənlər:
- Muzdsuz işləyənlər;
  *onlardan:*
- *İşəgötürənlər (Sahibkarlar);*
- *Fərdi əmək fəaliyyəti ilə məşğul olanlar (fiziki şəxslər, özü məşğullar və digər);*
- *İstehsal kooperativinin (birliyinin) üzvləri;*
- *Əməyi ödənilməyən ailə işçiləri.*

## 2. Aktuallıq

Əmək statistikasının (əmək bazarı statistikası) iqtisadi və xidmət statistikasının əsas tərkib hissəsi olduğunu nəzərə aldıqda məlum olur ki, işçilərin sayı və əmək haqqı üzrə göstəricilər istifadəçilərin ən çox maraqlandığı və ehtiyac duyduğu məlumatlardır.

Bu məlumatlar Beynəlxalq Əmək Təşkilatının Baş konfransı tərəfindən qəbul olunmuş beynəlxalq standartlara cavab verən Əmək Statistikası haqqında Konvensiya və əmək statistikası haqqında Tövsiyələrə əsaslanaraq əldə olunduğu üçün öz keyfiyyət göstəriciləri ilə seçilir.

İşçilərin sayı və əmək haqqına dair rəsmi statistik məlumatlar ölkə iqtisadiyyatının güzgüsü rolunu oynayır. Bu göstəricilər həm beynəlxalq təşkilatların, həm rəhbər orqanların, həm kütləvi informasiya vasitələrinin, həm elmi mütəxəssislərin, həm geniş ictimaiyyətin nümayəndələrinin, həm də ayrı-ayrı şəxslərin mütəmadi diqqət mərkəzində olub və olmaqdadır.

Əmək statistikasının göstəricilərinin aktuallığını nəzərə alaraq artan tələbatı ödəmək məqsədilə həm rəsmi statistika hesabatlarında həm də müayinənin sorğu anketlərində ən çox tələb olunan göstəricilərin əldə edilməsi üçün lazımi dəyişikliklər edilir və metodologiyalarda tələbata uyğun təkmilləşmələr aparılır.

## 3. Dəqiqlik

Hesabat məlumatlarının dəqiqliyini və düzgün doldurulmasını təmin etmək məqsədilə Əmək statistikası şöbəsi hər zaman məlumatların nəticələrini diqqətlə nəzərdən keçirir, hesabat məlumatlarının düzgünlüyünə vaxtında nəzarət üçün yerli statistika orqanlarına və Baş Hesablama Mərkəzinin müvafiq şöbəsinə qarşıya çıxa biləcək səhvlərin vaxtında və yerində aradan qaldırılmasının, metodologiyaya uyğun həyata keçirilməsinin vacibliyini nəzərlərinə çatdırır. Hesabat formalarında və metodoloji tövsiyələrdə tələbata uyğun olaraq təkmilləşdirmələr aparılır.

Müayinə aparılması ilə əlaqədar xətalara, nöqsanlara yol verilməməsi üçün daim yerli statistika orqanları ilə əlaqə saxlanılır, onlara sorğu anketlərində respondentlərin cavablarının düzgün qeyd edilməsi və sorğu məlumatlarının yoxlanılıb vaxtında elektron xidməti vasitəsilə informasiya sisteminə daxil edilməsi tapşırılmışdır və bu işə daim nəzarət olunur. Eyni zamanda mövcud təcrübədən və beynəlxalq tövsiyələrdən istifadə etməklə istifadəçilərin tələbatını ödəmək məqsədilə müayinənin sorğu anketləri beynəlxalq tələblərə, standartlara uyğunlaşdırılır. Metodoloji yeniliklər baş verdikdə

yerli statistika orqanlarının mütəxəssislərinin iştirak ilə keçirilən seminarlar və ya məktub vasitəsilə onlar operativ məlumatlandırılırlar.

***D2. Əhatə olunma üzrə xətanın səviyyəsi***

***Cədvəl № 1***

| | 2010 | 2011 | 2012 |
|---|---|---|---|
| Hesabatı təqdim edən statistik vahidlərin siyahısında vahidlərin sayı | 23145 | 22860 | 22788 |
| Münasib olmayan statistik vahidlərin sayı | 0 | 0 | 0 |
| Əhatə olunma üzrə xətanın səviyyəsi (%) | ... | ... | ... |

***D4. Sorğuya cavab vermiş vahidlərin xüsusi çəkisi (hesabat intizamı)***

***Cədvəl № 2***

| | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|
| Məlumatların toplanması üçün təyin olunmuş statistik vahidlərin sayı (il üzrə) | 12800 | 12800 | 18900 | 18900 | 43492 |
| Bir neçə dəyişən üçün məlumatları təqdim etmiş statistik vahidlərin sayı | 12800 | 12800 | 18900 | 18900 | 43492 |
| Sorğuya cavab vermiş statistik vahidlərin xüsusi çəkisi (%) | 100% | 100% | 100% | 100% | 100% |

**Müayinənin seçmə şəbəkəsinin yaradılması metodologiyası**

Ölkə üzrə əhalinin iqtisadi fəallığının tədqiqi üçün seçmə vahidi kimi ev təsərrüfatları götürülmüş və hər bir ev təsərrüfatının seçməyə eyni ehtimalla düşməsi əsas prinsip hesab olunur. Respublikanın yaşayış məntəqələri 2 qrupa - şəhər və kənd yaşayış məntəqələrinə bölünür. Şəhər və kənd yerlərində seçmə şəbəkəsi yaradılır.

Seçmə şəbəkəsi aşağıdakı mərhələlər üzrə yaradılır;

- şəhər və kənd ərazi vahidlərində seçmə planının hazırlanması;
- şəhər ərazi vahidi üzrə əhalinin siyahısı üzrə məlumat bazasının yaradılması;
- şəhər yaşayış yerlərində sayıcı məntəqələrinin qruplaşdırılması;
- rayon mərkəzindən məsafəyə görə kənd yaşayış yerlərinin qruplaşdırılması;
- ev təsərrüfatlarının seçilməsi.

Rayon və şəhərlər üzrə seçmə planı son illər əhalinin 2009-cu ildə aparılmış siyahıyaalınması məlumatları əsasında tərtib edilmişdir. Yəni hər bir rayon və şəhərdə yaşayanların sayına əsasən seçiləcək müvafiq ev təsərrüfatları müəyyən olunmuşdur.

**Müayinənin nəticəsinin yekunlaşdırılması**

Seçmə planının həcmindən və başqa parametrlərdən asılı olaraq müayinənin nəticəsi ümumiləşdirilir, yəni seçmə müayinənin nəticəsi müvafiq əmsala vurularaq respublika üçün yekun məlumatlar hesablanır. Əmsal aşağıdakı düsturla hesablanır:

$$W_i = W_{bi} * K_{1j}*K_{2j}*K_{3j}*K_{4j}*K_{5j}$$

***Əhatə olunma üzrə xətanın səviyyəsi***

Əhatə olunma üzrə xətaların səviyyəsinin xarakteristikasını nəzərdən keçirmək üçün 2003-cü ilin may ayında keçirilmiş "Əhalinin iqtisadi fəallığı"na dair seçmə statistik müayinənin nəticəsinə nəzər salaq.

Seçmənin nisbi standart xətası təhlil üçün istifadə olunur. Bu zaman variasiya əmsalı əsas götürülür, yəni variasiya əmsalı 5 % -dən az olarsa belə hal daha keyfiyyətli hesab olunur (CV<=5 %). Lakin variasiya əmsalının qiyməti 5>CV<=10 % hallarına normal və yaxud 10>CV<=25 % hallarda olanda da seçmə müayinə kafi hesab olunur.

Yuxarıda verilmiş düsturların köməyi ilə məşğul əhali üzrə hesablanmış standart xəta, seçmə xətasının limiti və variasiya əmsalı əlavələrdə göstərilmişdir (cədvəl 1-3).

*Cədvəl № 3*

***Əhalinin məşğulluğu üzrə statistik xarakteristikalar***

| | *Məşğul əhali, nəfər* | *Seçmənin standart xətası (SE), nəfər* | *Seçmə xətasının limiti(LSE), nəfər* | *Variasiya əmsalı (CV), %* |
|---|---|---|---|---|
| *Cəmi* | *27462* | *125.52* | *246.04* | *0.46* |
| *ondan:* | | | | |
| *kişi* | *16062* | *70.23* | *137.66* | *0.44* |
| *qadın* | *11400* | *53.66* | *105.19* | *0.47* |
| *şəhər* | *13945* | *80.64* | *158.07* | *0.58* |
| *kənd* | *13517* | *94.52* | *185.29* | *0.70* |

*Cədvəl № 4*

***Əhalinin məşğulluq faizi üzrə statistik xarakteristikalar***

| | *Məşğul əhali, %* | *Seçmənin standart xətası (SE), %* | *Seçmə xətasının limiti(LSE), %* | *Variasiya əmsalı (CV), %* |
|---|---|---|---|---|
| *Cəmi* | *89.30* | *0.13* | *0.26* | *0.15* |
| *ondan:* | | | | |
| *kişi* | *90.37* | *0.10* | *0.20* | *0.11* |
| *qadın* | *87.83* | *0.12* | *0.23* | *0.14* |
| *şəhər* | *85.97* | *0.20* | *0.39* | *0.23* |
| *kənd* | *93.02* | *0.16* | *0.31* | *0.17* |

*Cədvəl № 5*

***Əhalinin məşğulluq faizi üzrə statistik xarakteristikaları***

***(yaş qruplar üzrə)***

| | Məşğul əhali, % | Seçmənin standart xətası (SE), % | Seçmə xətasının limiti(LSE), % | Variasiya əmsalı (CV), % |
|---|---|---|---|---|
| *Cəmi* | *89.30* | *0.13* | *0.26* | *0.15* |
| *ondan:* | | | | |
| *15-19* | *82.72* | *0.16* | *0.31* | *0.19* |
| *20-24* | *76.17* | *0.24* | *0.48* | *0.32* |
| *25-29* | *85.13* | *0.17* | *0.33* | *0.20* |
| *30-34* | *91.48* | *0.12* | *0.23* | *0.13* |
| *35-39* | *93.28* | *0.09* | *0.18* | *0.10* |
| *40-44* | *94.46* | *0.09* | *0.18* | *0.10* |
| *45-49* | *93.77* | *0.11* | *0.21* | *0.12* |
| *50-54* | *91.69* | *0.10* | *0.20* | *0.11* |
| *55-59* | *94.85* | *0.16* | *0.31* | *0.17* |
| *60 -64* | *97.15* | *0.00* | *0.00* | *0.00* |
| *65+* | *99.26* | *0.00* | *0.00* | *0.00* |

## 4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin "Yerli statistika orqanları üçün statistik işlər proqramı"na əsasən yerli statistika orqanlarından aylıq və rüblük məlumatlar hesabat ayından sonrakı ayın 20-22-ci günü, illik məlumatlar isə fevral ayının 14-25 tarixinə Baş Hesablama Mərkəzinə təqdim olunur. Müayinə materialları isə keçirildiyi vaxtdan asılı olaraq başqa-başqa tarixlərdə təqdim olunur. Əldə olunan məlumatlar yoxlanılır və düzgünlüyü məlum olduqdan sonra istifadəsinə qərar verilir. Aylıq yekun məlumatlar hesabat dövründən 40-42 gün sonra hazır olur və həmin dövrdə də istifadəçilərə təqdim olunur.

İllik yekun məlumatlar isə iyun ayının birinci on günlüyündə tam hazır olur və göstəricilərin istifadəsi həyata keçirilir.

Müayinə məlumatları isə müayinənin keçirildiyi müddətdən sonra 25-ci günə kimi təqdim olunur və sonra Baş Hesablama Mərkəzində məlumatların cəmlənməsi və çıxış cədvəllərinin əldə edilməsi prosesi həyata keçirilir. Bu proses isə xeyli vaxt tələb edir.

İllik məlumatlar əsasında hazırlanan məcmuələr qrafikə uyğun olaraq vaxtında nəşr olunub istifadəçilərə çatdırılır və veb saytda yerləşdirilir.

*2012-2013-cü illəri əhatə edən bir neçə ay üzrə **V2 (hesabat dövrünün sonuncu günündən son nəticələrin nəşr gününə qədər günlərin sayı)** göstəricisi (son nəticələrin vaxtlı-vaxtında olması)*

***Cədvəl № 6***

| Hesabat dövrü | 15.02.2012 | 15.03.2012 | 05.04.2013 |
|---|---|---|---|
| Nəşr tarixi | 12.02.2012 | 13.03.2013 | 15.04.2013 |
| Aralıq vaxt (laq), təqvim günü | 4 gün | 3 gün | 6 gün |
| Aralıq vaxt (laq), iş günü | 4 gün | 3 gün | 4 gün |

## 5. Bərabər giriş və aydınlıq

Əmək bazarının əsas göstəriciləri olan işçilərin sayı və əmək haqqına dair yekun məlumatlar hazırlandıqdan sonra istifadəçilərin tələbatlarının ödənilməsi məqsədi ilə bir neçə yayım vasitəsindən istifadə olunur. Belə ki, yekun məlumatların hesablanması prosesi başa çatdıqdan sonra məruzə, press-reliz, təhlil və ekspress məlumatlar, aylıq və illik məlumatlar əks olunmuş MDB-nin xüsusi standartları üzrə hazırlanmış cədvəllər, illik məlumatlar əks olunmuş cədvəllər Dövlət Statistika Komitəsinin ayrı-ayrı statistik məcmuələrində və Komitənin veb- səhifəsində PDF formatında əks olunur. İllik məlumatlar Komitənin veb- səhifəsindəki statistik məlumat bazası bölməsində də yerləşdirilir.

http://www. stat.gov.az Bundan əlavə göstəricilər və hesabat formalarına dair metaməlumatlar, həmçinin digər metodoloji izahlar da mövcuddur (http://www.stat.gov.az/menu/7/)

***Nəticələrin yayımlanması üçün istifadə olunan vasitələr***

| Sıra №-si | Vasitə | Əldə edilmə yeri |
|---|---|---|
| **1** | Dövlət Statistika Komitəsinin veb saytı | www.stat.gov.az |
| **2** | Ekspress məlumatlar, press-relizlər | www.stat.gov.az |
| **3** | | |
| **4** | Nəşr olunan statistik məcmuələr | http://www.stat.gov.az/source/labour/ |
| **5** | Məlumat bazası | http://www.azstat.org/MESearch/search?departament=22&lang=az |
| **6** | Dövlət statistika orqanlarına göndərilən sorğulara cavablar | - |
| **7** | "Azərbaycan rəqəmlərdə" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| **8** | "Azərbaycanın statistik göstəriciləri" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| **9** | "Azərbaycanın statistik göstəriciləri" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| **10** | "Azərbaycan faktlarla" | - |

### *BA1. Kağız məruzələr üçün abunələrin və sifarişlərin sayı*

Əmək statistikası şöbəsi tərəfindən ildə iki məcmuə “Əmək bazarı” və “Dövlət qulluqçuları” hazırlanıb nəşriyyata təqdim olunur, hər bir məcmuə 200 nüsxədə nəşr olunur. Çap olunmuş məcmuələr rəhbər orqanlara, nazirliklərə, sifarişçilərə, kitabxanaya pulsuz təqdim olunur, Dövlət Statistika Komitəsində digər sahə şöbələrinə paylanılır və bir qismi isə istifadəçilərə satılır.

İşçilərin sayı və əmək haqqına dair məlumatlar digər şöbələrin çap etdirdiyi məcmuələrdə də yer alır.

### *BA2. Onlayn məlumat bazasına girişlərin sayı*

http://www.stat.gov.az/link_click_counter/-də işçilərin sayı və əmək haqqına dair məhsulundan istifadəçilərin istifadə %-ləri daimi əks etdirilir.

## 6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik

Əmək statistikası şöbəsi ancaq işçilərin sayı və əmək haqqı üzrə göstəricilərin deyil, həm də şöbənin işinə aid olan bütün statistik məhsulların uyğunluğunun təmin olunması, onların hazırlandığı statistik proseslərdə vahid sxem üzərində işlərin qurulmasına və hər yerdə eyni metodologiya və təsnifatı quruluşda milli və beynəlxalq tələblərə cavab verən şərtlərlə yüksək keyfiyyətli məlumatlar əldə etməyə köklənmişdir.

Statistik məhsulların keyfiyyətli və statistika şöbələrinin sahələrarası məlumatlarının düzgünlüyünü təmin etmək üçün eyni göstəricilərin müxtəlif statistik hesabat formalarında tələb olunduğu zaman eyni metodologiya əsasında doldurulması vacibdir və lazım gəldiyi təqdirdə hesabatın müəyyən yerində qeyd edilməlidir ki, bu göstərici müəssisənin təqdim etdiyi digər statistik hesabatın müvafiq sətrinin və ya sütununun göstəricisi ilə eyni olmalıdır.

İşçilərin sayı və əmək haqqına dair məlumatların əks olunduğu bütün məcmuələrdə keyfiyyət, düzgün düzüm (ardıcıllıq), lazımi qeyd və izahlar öz əksini tapır.

## 7. Çıxış keyfiyyət komponentləri arasında seçim

Əmək statistikası şöbəsi rəsmi statistika hesabatlarında olduğu kimi apardığı seçmə statistik müayinələrin nəticələrinin keyfiyyətli olması üçün sorğu vərəqələrində beynəlxalq standartlara cavab verən və dövrün tələblərini daha düzgün əks etdirə bilən aktual göstəricilər əldə etmək üçün müayinə anketində daha dolğun suallar qoymaqla, ölkənin rayon və şəhərlərindən seçilən ev təsərrüfatlarının sayını artırmaqla, respondentlərdən əldə edilən cavabların dolğunluğuna və bütövlüyünə xüsusi diqqət yetirməklə, onların proqrama uyğun olaraq yığılıb elektron poçt vasitəsilə ötürülməsini təmin etməyə diqqət yetirir.

## 8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi

Əmək statistikası şöbəsi tərəfindən təqdim olunan məhsulların istifadəçilərinin coğrafiyası olduqca genişdir. Belə ki, beynəlxalq təşkilatlar, ayrı-ayrı idarə və təşkilatlar, elm sahəsində çalışanlar, elmi işçilər, tələbələr, ədliyyə orqanları, ayrı-ayrı vətəndaşlar, xüsusilə əmək pensiyası və əlilliyə görə pensiya alanlar bura daxildir. Bunu əyani şəkildə şöbəyə daxil olan və şöbə tərəfindən cavablandırılan məktublardan da aydın görmək olar. İşçilərin sayı və əmək haqqına dair məlumatları DSK-nın veb saytından da əldə etmək olar və geniş istifadə olunur.

Şöbə tərəfindən hər ilin may ayında istifadəçilərlə iş planına uyğun olaraq seminar keçirilir, seminarda ayrı-ayrı nazirlik və komitələrin nümayəndələrindən əlavə BƏT, BVF, DB-nın nümayəndələri, KİV və digər maraqlı tərəflər iştirak edirlər. Sonuncu belə görüş 2012-ci ilin 23 may tarixində keçirilmişdir.

## 9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük

Respondentlərə düşən yükün azaldılması istiqamətində bilavasitə Dövlət Statistika Komitəsi tərəfindən bir çox işlər həyata keçirilmişdir ki, bu da respondentlərlə bərabər yerli statistika orqanları və sahə şöbələrinin yükünün də azalmasına təsir edir. Bunun bariz nümunələrində biri də hesabatların statistik vahidlərdən elektron ötürmə vasitələri ilə qəbul edilməsidir. Bunun səmərəsi xüsusilə yerli statistika orqanlarında hiss olunur.

Hesabat məlumatlarının elektron ötürmə vasitələri ilə yığılması vaxta və işlərin tez və səmərəli yerinə yetirilməsinə öz təsirini göstərir.

Səmərəliliyin yüksəldilməsi istiqamətində aparılan işlərdən biri də informasiya və kommunikasiya texnologiyalarının son nailiyyətlərindən bəhrələnmək və işlərdə son təsnifatlardan və kodlaşdırmalardan istifadəni tətbiq etməklə düzgün və keyfiyyətli məlumatlar əldə etməyə nail olmaqdır.

## 10. Məxfilik, şəffaflıq və təhlükəsizlik

Əmək statistikası şöbəsi "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq rəsmi statistikanın aparılması üçün yığılan, işlənən və məlumatlar bazasına daxil edilən, birbaşa və ya dolayı yolla statistik vahidlərin tanınmasına və beləliklə də, ilkin məlumatların əldə edilməsinə imkan verən hüquqi və fiziki şəxslərin ilkin statistik məlumatlarını məxfi sayır və statistik sirr olduğunu dərk edir və bu baxımdan da şöbə ilkin məlumatların məxfiliyinin qorunmasını daim izləyir və bu sahəyə daim diqqət yetirir.

Məcmu məlumatlar şəffafdır və bu məlumatlar nəşrlər, məruzə, press-reliz, beynəlxalq təşkilatlar, sorğular vasitəsilə geniş istifadəçilərə çatdırılır və onlayn elektron informasiya sistemində yerləşdirilmişdir.

Məlumatların təhlükəsizliyi hər zaman nəzarətdədir və qorunması üçün daim yeni yollar axtarılır.

## 11. Yekun

Əmək statistikası şöbəsi olaraq qarşıda duran əsas məsələlərdən biri əməyə dair bütün rəsmi statistika hesabatları və müayinə formalarını təftiş etmək, məzmun və keyfiyyət baxımından beynəlxalq standartlara cavab verə bilən forma və metodoloji tövsiyələri təkmilləşdirmək və onların statistik vahidlər tərəfindən tez bir zamanda istifadəsini təmin etməkdir.